[69] 30 sentyabr 2020-ci il tarixli **171-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 15 noyabr 2020-ci il, № 238, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 11, maddə 1322)** ilə 47-ci maddənin "e" bəndinə "**orqanının**" sözündən sonra "**müəyyən etdiyi orqanın (qurumun)**" sözləri əlavə edilmişdir.

[70] 3 dekabr 2002-ci il tarixli **391-IIQD** nömrəli "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının Əmək Məcəlləsinə dəyişiklik və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2003-cü il, № 1, maddə 9**) ilə 48-ci maddənin birinci hissəsində "**şəxsiyyətini təsdiq edən sənədi**" sözlərindən sonra "**və dövlət sosial sığorta şəhadətnaməsini (ilk dəfə əmək fəaliyyətinə başlayanlar istisna olmaqla)**" sözləri əlavə edilmişdir.

23 aprel 2021-ci il tarixli **298-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyun 2021-ci il, № 125, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 6, I kitab, maddə 539)** ilə 48-ci maddənin 1-ci hissəsindən "**və dövlət sosial sığorta şəhadətnaməsini (ilk dəfə əmək fəaliyyətinə başlayanlar istisna olmaqla)"** sözləri çıxarılmışdır.

[71] 5 oktyabr 2001-ci il tarixli **178-IIQD** nömrəli "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2001-ci il, № 11, maddə 672**) ilə 48-ci maddənin 3-cü hissəsində "**məcburi köçkün**" sözlərindən sonra "**onlara bərabər tutulan şəxs**" sözləri əlavə edilmişdir.

[72] 21 dekabr 2010-cu il tarixli **37-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 19 fevral 2011-ci il, № 39, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 02, maddə 70)** ilə 48-ci maddənin beşinci hissəsinə yeni məzmunda ikinci abzas əlavə edilmişdir.

[73] 27 dekabr 2013-cü il tarixli **875-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 5 fevral 2014-cü il, № 24, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 2, maddə 92)** ilə 49-cu maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~**Maddə 49. Əmək müqaviləsinin qüvvəyə minməsi**~~

~~1. Əmək müqaviləsində başqa hal nəzərdə tutulmayıbsa, o, tərəflərin imzaladığı gündən qüvvəyə minir.~~

~~2. İşçi bu Məcəllənin tələbləri pozularaq, yazılı əmək müqaviləsi olmadan, lakin əvvəlcədən işəgötürənin razılığı (tapşırığı) ilə faktiki olaraq işə başlamışsa, həmin andan əmək müqaviləsi bağlanmış hesab olunur və bu halda ən geci üç gün müddətində yazılı əmək müqaviləsi tərtib edilməlidir.~~

~~3. Əmək müqaviləsinin hər hansı dövlət orqanında və ya digər qurumlarda qeydiyyata alınması, təsdiq edilməsi yolverilməzdir.~~

-

13 may 2022-ci il tarixli **529-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 10 iyun 2022-ci il, № 121, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, №6, maddə 582)** ilə 49-cu maddənin adına "**minməsi**" sözündən sonra "**və qüvvədən düşməsi**" sözləri əlavə edilmişdir.

[74] 28 dekabr 2018-ci il tarixli **1448-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 30 dekabr 2018-ci il, № 296, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 12, I kitab, maddə 2532)** ilə 49-cu maddənin 1-ci hissəyə "**hissəsi**" sözündən sonra "**və bu maddənin 1-2-ci hissəsi**" sözləri əlavə edilmişdir.

[75] 28 dekabr 2018-ci il tarixli **1448-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 30 dekabr 2018-ci il, № 296, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 12, I kitab, maddə 2532)** ilə 49-cu maddəyə yeni məzmunda 1-2-ci hissə əlavə edilmişdir.

[76] 28 dekabr 2018-ci il tarixli **1448-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 30 dekabr 2018-ci il, № 296, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 12, I kitab, maddə 2532)** ilə 49-cu maddəyə yeni məzmunda 2-2-ci hissə əlavə edilmişdir.

[77] 30 dekabr 2014-cü il tarixli **1165-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 4 fevral 2015-ci il, № 026, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 2, maddə 97)** ilə 3-cü maddəsinin 5-1-ci hissəsində, 7-ci maddəsinin 2-ci hissəsində, 12-ci maddəsinin 1-ci hissəsinin "h" bəndində, 49-cu maddəsinin 1-ci, 2-ci və 4-cü hissələrində "**elektron informasiya sisteminə**" sözlərindən sonra "**gücləndirilmiş elektron imza vasitəsi ilə**" sözləri əlavə edilmişdir.

28 dekabr 2018-ci il tarixli **1448-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 30 dekabr 2018-ci il, № 296, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 12, I kitab, maddə 2532)** ilə 49-cu maddənin 4-cü hissədən "**gücləndirilmiş elektron imza vasitəsi ilə**" sözləri çıxarılmışdır və "**işəgötürənə**" sözündən sonra "**və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma**)" sözləri əlavə edilmişdir.

[78] 13 may 2022-ci il tarixli **529-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 10 iyun 2022-ci il, № 121, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, №6, maddə 582)** ilə 49-cu maddəyə yeni məzmunda 5-ci hissə əlavə edilmişdir.

[79] 1 oktyabr 2007-ci il tarixli **424-IIIQD** nömrəli Azərbaycan Respublikası Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2007-ci il, № 11, maddə 1049**) ilə 50-ci maddənin ikinci hissəsinə üçüncü cümlə əlavə edilmişdir.

31 oktyabr 2017-ci il tarixli **821-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 13 dekabr 2017-ci il, № 275, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2189)** ilə 50-ci maddənin 2-ci hissəsinin birinci cümləsində "**bir qayda olaraq elm**," sözləri "**elmi müəssisə və təşkilatlar və**" sözləri ilə əvəz edilmişdir.

[80] 24 fevral 2009-cu il tarixli **771-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105,Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 294)** ilə 50-ci maddənin 5-ci hissəsində "**öz mülahizəsinə görə**" sözləri "**müəyyən edilmiş qaydada**" sözləri ilə əvəz edilmişdir.

[81] 24 fevral 2009-cu il tarixli **771-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 294)** ilə 52-ci maddənin 4-cü abzası səkkizinci abzas hesab edilmişdir, üçüncü abzasından sonra yeni abzaslar əlavə edilmişdir.

[82] 19 may 2020-ci il tarixli **114-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 15 iyul 2020-ci il, № 136**, Azərbaycan **Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 7, maddə 832)** ilə 54-cü maddənin 1-ci hissəsinin beşinci abzasına "**normalarına**" sözündən sonra "**, əlilliyi olan şəxslərə münasibətdə isə həmçinin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilən iş yerlərinin standartlarına**" sözləri əlavə edilmişdir.

[83] 20 noyabr 2020-ci il tarixli **199-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 6 yanvar 2021-ci il, № 1**, Azərbaycan **Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 12, I kitab, maddə 1424)** ilə 54-cü maddənin 1-ci hissəsinin doqquzuncu abzasında "**qanunvericiliklə**" sözü "**qanunla**" sözü ilə əvəz edilsin və həmin abzasa "**sosial sığorta**" sözlərindən sonra "**və digər icbari sığorta**" sözləri əlavə edilmişdir

[84] 21 dekabr 2010-cu il tarixli **37-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 19 fevral 2011-ci il, № 39, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 02, maddə 70)** ilə 54-cü maddənin birinci hissəsinin on birinci abzası on ikinci abzas hesab edilmişdir və hissəyə yeni məzmunda on birinci abzas əlavə edilmişdir.

[85] 24 fevral 2009-cu il tarixli **771-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 294)** ilə 54-cü maddənin 1-ci hissəsinin onuncu abzası on birinci abzas hesab edilmişdir və onuncu abzas əlavə edilmişdir.

[86] 30 sentyabr 2020-ci il tarixli **171-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 15 noyabr 2020-ci il, № 238**, Azərbaycan **Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 11, maddə 1322)** ilə 56-cı maddənin dördüncü hissəsində "**orqanına**" sözü "**orqanının müəyyən etdiyi orqana (quruma)**" sözləri ilə və "**orqanı**" sözü "**orqanının müəyyən etdiyi orqan (qurum)**" sözləri ilə əvəz edilmişdir.

[87] 24 fevral 2009-cu il tarixli **771-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 294)** ilə 58-ci maddənin 1-ci hissəsinin birinci cümləsində "**başqa iş yerində**" sözləri "**başqa iş yerlərində**" sözləri ilə əvəz edilsin, ikinci cümləsində "**ikinci**" sözü çıxarılsın, "**birinci əmək müqaviləsi bağlanan**" sözləri "**əmək kitabçası saxlanılan**" sözləri ilə əvəz edilmişdir və üçüncü cümlə əlavə edilmişdir.

[88] 24 fevral 2009-cu il tarixli **771-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 294)** ilə 58-ci maddənin 3-cü hissəsinin birinci cümləsində "**iş yerində**" sözləri "**iş yerlərində**" sözləri ilə əvəz edilmişdir.

[89] 24 fevral 2009-cu il tarixli **771-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105,Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 294)** ilə 59-cu maddədə "**həmçinin**" sözündən sonra "**əmək müqaviləsinə əlavə və dəyişikliklər edilməklə və ya**" sözləri əlavə edilmişdir.

[90] 24 fevral 2009-cu il tarixli **771-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 294)** ilə 61-ci maddənin 1-ci hissəsində "**on beş gündən çox müddətdə**" sözləri "**iş**" sözü ilə əvəz edilmişdir.

[91] 15 aprel 2005-ci il 888-IIQD nömrəli "Azərbaycan Respublikasının Əmək Məcəlləsinə əlavə edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, № 7, maddə 560**) ilə 61-ci maddəsinə yeni 4-cü hissə əlavə edilmişdir.

[92] 17 aprel 2007-ci il 313-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2007-ci il, № 6, maddə 560**) ilə 62-ci maddənin 1-ci hissəsinin "a)" bəndində "**narkotik,**" sözü "**narkotik vasitələr və psixotrop,**" sözləri ilə əvəz edilmişdir.

[93] 30 dekabr 2003-cü il tarixli **568-IIQD** nömrəli "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında "Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarına dəyişikliklər və əlavələr edilməsi və bəzi qanunvericilik aktlarının qüvvədən düşmüş hesab edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2004-cü il, № 2, maddə 57**) ilə 62-ci maddənin 1-ci hissəsinin "c" bəndində "**hüquqpozmaları**" sözü "**xətaları**" sözü ilə əvəz edilmişdir.

[94] 21 dekabr 2010-cu il tarixli **37-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 19 fevral 2011-ci il, № 39, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 02, maddə 70)** ilə 62-ci maddənin birinci hissəsinin "c" bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və hissəyə yeni məzmunda "ç" bəndi əlavə edilmişdir.

[95] 24 fevral 2009-cu il tarixli **771-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 294)** ilə 62-ci maddənin 3-cü hissəsinə ikinci cümlə əlavə edilmişdir.

[96] 23 iyun 2023-cü il tarixli **924-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 17 iyul 2023-cü il, "Azərbaycan" qəzeti, 18 iyul 2023-cü il, № 148)** ilə 64-cü maddəsinin 1-ci hissəsinə "**keçirilməsini**" sözündən sonra "**və attestasiyanın aparılması nəticələrinə dair sənədlərin surətinin 10 iş günü müddətində məlumat üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim olunmasını**" sözləri əlavə edilmişdir.

[97] 31 oktyabr 2017-ci il tarixli **821-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 13 dekabr 2017-ci il, № 275, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2189)** ilə 65-ci maddənin 2-ci hissəsinin ikinci cümləsinə "**üç ildə"** sözlərindən sonra **", elmi işçilər isə beş ildə**" sözləri əlavə edilmişdir.

[98] 5 noyabr 2022-ci il tarixli **626-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı 24 noyabr 2022-ci il, "Azərbaycan" qəzeti, 25 noyabr 2022-ci il, № 257, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 11, maddə 1239)** ilə 65-ci maddənin 5-ci hissəsinə yeni məzmunda üçüncü cümlə əlavə edilmişdir.

[99] 25 aprel 2017-ci il tarixli **622-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyun 2017-ci il, № 130, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 6, maddə 1031)** ilə 65-ci maddəyə yeni məzmunda 5-1-ci hissə əlavə edilmişdir.

[100] 25 aprel 2017-ci il tarixli **622-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyun 2017-ci il, № 130, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 6, maddə 1031)** ilə 65-ci maddəyə yeni məzmunda "**Qeyd**" hissəsi əlavə edilmişdir.

[101] 16 dekabr 2008-ci il tarixli **743-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 15 fevral 2009-cu il, № 36, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 02, maddə 48)** ilə 66-cı maddənin ikinci abzasında "**yaralanmış**" sözü "**xəsarət (yaralanma, travma, kontuziya) almış**" sözləri ilə əvəz edilmişdir.

19 may 2020-ci il tarixli **114-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 15 iyul 2020-ci il, № 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 7, maddə 832)** ilə 66-cı maddənin ikinci abzasında "**əlil olmuş"** sözləri "**əlilliyi müəyyən edilmiş**" sözləri ilə əvəz edilmişdir.

[102] 1 oktyabr 2007-ci il tarixli 424-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2007-ci il, № 11, maddə 1049**) ilə 66-cı maddənin altıncı abzasında "**qadınlar**" sözündən sonra "**(uşağını təkbaşına böyüdən kişilər)**" sözləri əlavə edilmişdir.

[103] 20 oktyabr 2009-cu il tarixli **891-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti 25 dekabr 2009-cu il, № 287**) ilə 66-cı maddənin onuncu abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və on birinci abzas əlavə edilmişdir.

[104] 12 iyun 2018-ci il tarixli **1188-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 8 iyul 2018-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 7, I kitab, maddə 1408)** ilə 6-cı maddənin on birinci abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və maddəyə yeni məzmunda on ikinci abzas əlavə edilmişdir.

29 mart 2019-cu il tarixli **1551-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 26 may 2019-cu il, № 115, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 5, maddə 796)** ilə 66-cı maddənin on ikinci abzasına, 67-2-ci maddənin adına və 1-ci hissəsinə, 70-ci maddənin "Qeyd"inə "**ümumi təhsil**" sözlərindən sonra "**və peşə təhsili (tam orta təhsil üzrə təhsilverənlərə münasibətdə)**" sözləri əlavə edilmişdir.

6 oktyabr 2020-ci il tarixli **185-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 27 noyabr 2020-ci il, № 248, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 11, maddə 1335)** ilə 66-cı maddənin on ikinci abzasında, 70-ci maddənin "Qeyd" hissəsinin birinci cümləsində "**və peşə təhsili (tam orta təhsil üzrə təhsilverənlərə münasibətdə) müəssisələrində**" sözləri "**müəssisələrində (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrində)"** sözləri ilə əvəz edilmişdir.

6 iyun 2023-cü il tarixli **909-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 24 iyul 2023-cü il, "Azərbaycan" qəzeti, 25 iyul 2023-cü il, № 154)** ilə 66-cı maddənin on ikinci abzası yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~*Azərbaycan Respublikasında dövlət ümumi təhsil müəssisələrində (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrində) işləyən təhsilverənlər.*~~

[105] 5 noyabr 2022-ci il tarixli **626-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı 24 noyabr 2022-ci il, "Azərbaycan" qəzeti, 25 noyabr 2022-ci il, № 257, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 11, maddə 1239)** ilə 67-ci maddənin 2-ci hissəsinə "**işçinin**" sözündən əvvəl "**işçinin peşə hazırlığının yüksəldilməsi, yeni ixtisasa yiyələnməsi və ixtisasının artırılması üçün onu təlimlərə cəlb edə və yaxud**" sözləri əlavə edilmişdir.

[106] 20 oktyabr 2009-cu il tarixli **891-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti 25 dekabr 2009-cu il, № 287**) ilə 67-1-ci maddə əlavə edilmişdir.

[107] 29 dekabr 2015-ci il tarixli **77-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 19 fevral 2016-cı il, № 38; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 02, I kitab, maddə 190)** ilə 67-1-ci maddənin 1-ci hissəsinə yeni məzmunda ikinci cümlə əlavə edilmişdir.

[108] 23 aprel 2021-ci il tarixli **301-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 13 iyun 2021-ci il, № 122, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 6, I kitab, maddə 541)** ilə 67-1-ci maddənin 3-cü hissəsində, 75-ci maddənin 2-ci hissəsinin "b" bəndində və 130-cu maddənin birinci hissəsinin "h" bəndində "**səhiyyə**" sözü "**tibb**" sözü ilə əvəz edilmişdir.

[109] 6 oktyabr 2020-ci il tarixli **185-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 27 noyabr 2020-ci il, № 248, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 11, maddə 1335)** ilə 67-1-ci maddənin 5-ci hissəsində "**əsas ola bilər**" sözləri "**əsasdır**" sözü ilə əvəz edilmişdir.

[110] 12 iyun 2018-ci il tarixli **1188-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 8 iyul 2018-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 7, I kitab, maddə 1408)** ilə yeni məzmunda 67-2-ci maddə əlavə edilmişdir.

6 oktyabr 2020-ci il tarixli **185-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 27 noyabr 2020-ci il, № 248, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 11, maddə 1335)** ilə 67-2-ci maddənin adında və 1-ci hissədə "**və peşə təhsili (tam orta təhsil üzrə təhsilverənlərə münasibətdə) müəssisələrində**" sözləri "**müəssisələrində (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrində)"** sözləri ilə əvəz edilmişdir.

6 iyun 2023-cü il tarixli **909-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 24 iyul 2023-cü il, "Azərbaycan" qəzeti, 25 iyul 2023-cü il, № 154)** ilə 67-2-ci maddənin adına və 1-ci hissəyə birinci halda "**dövlət**" sözündən sonra "**məktəbəqədər və**" sözləri əlavə edilmişdir.

[111] 6 iyun 2023-cü il tarixli **909-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 24 iyul 2023-cü il, "Azərbaycan" qəzeti, 25 iyul 2023-cü il, № 154)** ilə 67-2-ci maddənin 3-cü hissədə "**beş**" sözü "**üç**" sözü ilə əvəz edilmişdir.

[112] 6 iyun 2023-cü il tarixli **909-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 24 iyul 2023-cü il, "Azərbaycan" qəzeti, 25 iyul 2023-cü il, № 154)** ilə 67-2-ci maddəyə yeni məzmunda 3-1-ci hissə əlavə edilmişdir.

[113] 6 oktyabr 2020-ci il tarixli **185-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 27 noyabr 2020-ci il, № 248, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 11, maddə 1335)** ilə 67-2-ci maddənin 4-cü hissədə "**əsas ola bilər**" sözləri "**əsasdır**" sözü ilə əvəz edilmişdir.

[114] 1 oktyabr 2007-ci il tarixli **424-IIIQD** nömrəli Azərbaycan Respublikası Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2007-ci il, № 11, maddə 1049**) ilə 69-cu maddənin üçüncü hissəsində "**bağladıqda**" sözündən sonra "**, seksual qısnamaya məruz qaldıqda**" sözləri əlavə edilmişdir.

19 may 2020-ci il tarixli **114-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 15 iyul 2020-ci il, № 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 7, maddə 832)** ilə 69-cu maddənin 3-cü hissəsində "**təqaüdə**" sözü "**əmək pensiyasına**" sözləri ilə əvəz edilmişdir.

[115] 24 fevral 2009-cu il tarixli **771-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 294)** ilə 70-ci maddənin "ç" bəndindən sonra "d" bəndi əlavə edilmişdir.

[116] 17 may 2011-ci il tarixli **127-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 9 iyun 2011-ci il, № 117, "Azərbaycan" qəzeti, 10 iyun 2011-ci il, № 124, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 06, maddə 464)** ilə 70-ci maddənin "d" bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və maddəyə yeni məzmunda "e" bəndi əlavə edilmişdir.

[117] 24 fevral 2009-cu il tarixli **771-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 294)** ilə 70-ci maddənin "Qeyd" hissəsindən "**, habelə müəssisənin direktorlar şurası, elm və təhsil müəssisələrinin elmi şurası, pedaqoji şurası**" sözləri çıxarılmışdır.

20 oktyabr 2009-cu il tarixli **891-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti 25 dekabr 2009-cu il, № 287**) ilə 70-ci maddənin "Qeyd" hissəsinin birinci cümləsində "**komissiyası**" sözündən sonra "**, praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan işçilərin sertifikasiyasını həyata keçirən müvafiq icra hakimiyyəti orqanı**" sözləri əlavə edilmişdir.

12 iyun 2018-ci il tarixli **1188-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 8 iyul 2018-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 7, I kitab, maddə 1408)** ilə 70-ci maddənin "Qeyd" hissəsinin birinci cümləsində "**komissiyası**" sözündən sonra "**Azərbaycan Respublikasında dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlərin və**" sözləri əlavə edilmişdir.

6 iyun 2023-cü il tarixli **909-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 24 iyul 2023-cü il, "Azərbaycan" qəzeti, 25 iyul 2023-cü il, № 154)** ilə 70-ci maddənin "Qeyd" hissəsinə birinci halda "**dövlət**" sözündən sonra "**məktəbəqədər və**" sözləri əlavə edilmişdir.

[118] 16 may 2008-ci il tarixli 608-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, №7, maddə 600**) ilə maddənin adı yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~İşəgötürən tərəfindən əmək müqaviləsi ləğv edilərkən hökmən nəzərə alınmalı olan zəruri şərtlər və qaydalar~~

[119] 16 may 2008-ci il tarixli 608-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, №7, maddə 600**) ilə maddənin 1-ci hissəsi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~1. İstər müəssisə bölünərkən, başqa müəssisəyə birləşərkən və ya digər qaydada yenidən təşkil olunarkən, yaxud təşkilati-hüquqi forması dəyişərkən, istərsə də müəssisədə belə dəyişikliklər edilmədən işçilərin sayı azaldıldıqda, ştatları ixtisar olunduqda, o cümlədən işçinin tutduğu vəzifəyə uyğun gəlmədiyi barədə səlahiyyətli orqan tərəfindən müvafiq qərar qəbul edildikdə işəgötürən tərəfindən işçinin peşəkarlığı, ixtisası (peşəsi, sənəti) nəzərə alınmaqla onun müvafiq işə (vəzifəyə) keçirilməsi imkanı araşdırılmalıdır. İşəgötürənin belə imkanları olmadıqda göstərilən əsaslarla əmək müqaviləsi ləğv edilə bilər.~~

[120] 16 may 2008-ci il tarixli 608-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, №7, maddə 600**) ilə maddənin 1-ci hissəsi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~1. İstər müəssisə bölünərkən, başqa müəssisəyə birləşərkən və ya digər qaydada yenidən təşkil olunarkən, yaxud təşkilati-hüquqi forması dəyişərkən, istərsə də müəssisədə belə dəyişikliklər edilmədən işçilərin sayı azaldıldıqda, ştatları ixtisar olunduqda, o cümlədən işçinin tutduğu vəzifəyə uyğun gəlmədiyi barədə səlahiyyətli orqan tərəfindən müvafiq qərar qəbul edildikdə işəgötürən tərəfindən işçinin peşəkarlığı, ixtisası (peşəsi, sənəti) nəzərə alınmaqla onun müvafiq işə (vəzifəyə) keçirilməsi imkanı araşdırılmalıdır. İşəgötürənin belə imkanları olmadıqda göstərilən əsaslarla əmək müqaviləsi ləğv edilə bilər.~~

[121] 30 dekabr 2003-cü il tarixli 568-IIQD nömrəli "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında "Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarına dəyişikliklər və əlavələr edilməsi və bəzi qanunvericilik aktlarının qüvvədən düşmüş hesab edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2004-cü il, № 2, maddə 57**) ilə 72-ci maddənin "f" bəndində "**hüquqpozmalara**" sözü "**xətalara**" sözü ilə əvəz edilmişdir.

[122] 31 may 2017-ci il tarixli **675-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyun 2017-ci il, № 130, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 6, maddə 1048)** ilə 73-cü maddənin 1-ci hissəsinin ikinci cümləsində "**Müddətli**" sözü "**Bu Məcəllənin 45-ci maddəsinin beşinci hissəsi nəzərə alınmaqla, müddətli**" sözləri ilə əvəz edilmişdir.

[123] 24 may 2002-ci il tarixli 333-IIQD nömrəli "Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi və bəzi normativ hüquqi aktlarının qüvvədən düşmüş hesab edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2002-ci il, № 6, maddə 328**) ilə 74-cü maddənin birinci hissəsinin "ç" bəndi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~ç) işçinin azadlıqdan məhrum edilməyə, azadlıqdan məhrum etmədən islah işlərinə (islah işlərinin iş yerində çəkilməsi istisna edilməklə), müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etməyə və ya vəzifədən çıxartma cəzasına məhkum edildiyi barədə məhkəmənin hökmü qanuni qüvvəyə mindikdə;~~

[124] 13 may 2022-ci il tarixli **529-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 10 iyun 2022-ci il, № 121, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 6, maddə 582)** ilə 74-cü maddənin 1-ci hissənin e) bəndinə "**vəfat etdikdə**" sözlərindən sonra "**, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə xəbərsiz itkin düşmüş və ya ölmüş elan edildikdə**" sözləri əlavə edilmişdir.

[125] 1 fevral 2008-ci il tarixli 540-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2008-ci il, № 3, maddə 156**) ilə 74-cü maddənin birinci hissəsinin "e" bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və hissəyə "ə" bəndi əlavə edilmişdir.

[126] 6 oktyabr 2020-ci il tarixli **185-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 27 noyabr 2020-ci il, № 248, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 11, maddə 1335)** ilə 74-cü maddənin 1-ci hissəsinin "ə)" bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və həmin hissəyə yeni məzmunda "f)" bəndi əlavə edilmişdir.

[127] 13 may 2022-ci il tarixli **529-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 10 iyun 2022-ci il, № 121, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, №6, maddə 582)** ilə 74-cü maddəyə yeni məzmunda 1-1-ci və 1-2-ci hissələr əlavə edilmişdir.

[128] 13 iyun 2008-ci il tarixli 648-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, №7, maddə 602**) ilə 74-cü maddənin **"Qeyd"** hissəsində **"əlillik qrupu"** sözlərindən sonra **"və ya 18 yaşınadək sağlamlıq imkanlarının məhdudluğu"** sözləri əlavə edilmişdir.

01 fevral 2010-cu il tarixli **950-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 24 fevral 2010-cu il, № 43, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, №2, maddə 75)** ilə 74-cü maddənin ikinci hissəsinin birinci cümləsində "**məhkəmənin**" sözündən sonra "**qanuni qüvvəyə minmiş**" sözləri əlavə edilmişdir.

[129] 3 dekabr 2004-cü il 795-IIQD nömrəli "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2004-cü il, № 12, maddə 981**) ilə Məcəllənin 74-cü maddəsinə aid qeydin dördüncü cümləsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Əmək qabiliyyətini bir ildən çox olmayan müddətə qismən itirmiş işçilər üçün isə müvafiq icra hakimiyyəti orqanının rəyi nəzərə alınır.~~

19 may 2020-ci il tarixli **114-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 15 iyul 2020-ci il, № 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 7, maddə 832)** ilə 74-cü maddənin "Qeyd" hissəsinin ikinci cümləsində "**müvafiq dərəcədən əlillik qrupu**" sözləri "**əlillik dərəcəsi**" sözləri ilə əvəz edilmişdir.

30 sentyabr 2020-ci il tarixli **171-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 15 noyabr 2020-ci il, № 238, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 11, maddə 1322)** ilə 74-cü maddənin "Qeyd" hissəsinə (hər üç halda), 98-ci maddənin ikinci hissəsinə və 232-ci maddənin üçüncü hissəsinə "**orqanının**" sözündən sonra "**müəyyən etdiyi orqanın (qurumun)**" sözləri əlavə edilmişdir.

22 iyun 2021-ci il tarixli **348-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 21 avqust 2021-ci il, № 175, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 8, maddə 894)** ilə 74-cü maddənin "Qeyd" hissəsinin ikinci cümləsində "**əlillik dərəcəsi və ya 18 yaşınadək sağlamlıq imkanlarının məhdudluğu**" sözləri "**onun orqanizminin funksiyalarının pozulması faizinə uyğun əlillik**" sözləri ilə əvəz edilmişdir.

[130] 31 may 2017-ci il tarixli **675-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyun 2017-ci il, № 130, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 6, maddə 1048)** ilə 77-ci maddənin 1-ci hissəsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~1. İşçilərin sayı azaldıqda və ya ştatları ixtisar olunduqda bu Məcəllənin 70-ci maddəsinin «b» bəndi ilə işəgötürən əmək müqaviləsini ləğv etməzdən azı iki ay əvvəl işçini rəsmi xəbərdar etməlidir.~~

[131] 31 may 2017-ci il tarixli **675-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyun 2017-ci il, № 130, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 6, maddə 1048)** ilə 77-ci maddənin 3-cü hissəsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~3. Əmək müqaviləsi bu Məcəllənin 70-ci maddəsinin «a» və «b» bəndləri ilə ləğv edilərkən işçilərə:~~

~~orta əmək haqqından az olmamaqla işdənçıxarma müavinəti;~~

~~işdən çıxarıldığı gündən yeni işə düzələn günədək ikinci və üçüncü aylar üçün orta əmək haqqı ödənilir.~~

[132] 31 may 2017-ci il tarixli **675-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyun 2017-ci il, № 130, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 6, maddə 1048)** ilə 77-ci maddənin 4-cü hissəsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~4. İşəgötürən bu maddənin birinci hissəsi ilə və bu Məcəllənin 56-cı maddəsinin ikinci hissəsi ilə müəyyən edilmiş xəbərdarlıq müddətləri əvəzinə işçiyə onun razılığı ilə azı iki aylıq əmək haqqını bir dəfəyə ödəməklə müvafiq əsasla əmək müqaviləsinə xitam verə bilər.~~

[133] 5 oktyabr 2001-ci il tarixli 186-IIQD nömrəli "Azərbaycan Respublikası Əmək Məcəlləsinin 77-ci maddəsinin 5-ci hissəsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2001-ci il, № 11, maddə 679**) ilə 77-ci maddənin 5-ci hissəsinin dördüncü cümləsindən "**müəssisəni satın alan yeni mülkiyyətçiyə, o cümlədən**" sözləri çıxarılmışdır.

Əvvəlki redaksiyasında deyilirdi:

~~5. Bu maddənin üçüncü hissəsində nəzərdə tutulan orta əmək haqqı müvafiq icra hakimiyyəti orqanı tərəfindən işçiyə verilən müvafiq arayışlar əsasında ödənilir. Həmin arayış işdən çıxarı gündən bir ay müddətində müvafiq icra hakimiyyəti orqanında qeydiyyata alınan şəxslərə verilir. Bu ödəmələr işəgötürən, müəssisə ləğv edildikdə isə onun əmlakının yeni mülkiyyətçisi (əmlakın operativ idarəçiliyini həyata keçirən hüquqi, fiziki şəxs) tərəfindən ödənilməlidir. Bu qayda müəssisəni satın alan yeni mülkiyyətçiyə, o cümlədən bu maddənin dördüncü hissəsində nəzərdə tutulan hala şamil olunmur.~~

-

31 may 2017-ci il tarixli **675-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyun 2017-ci il, № 130, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 6, maddə 1048)** ilə 77-ci maddənin 5-ci hissəsi ləğv edilmişdir.

[134] 31 may 2017-ci il tarixli **675-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyun 2017-ci il, № 130, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 6, maddə 1048)** ilə 77-ci maddənin 6-cı hissəsində "**işçilərin işə düzəldiyi dövr ərzində daha uzun müddətə orta əməkhaqqının saxlanılması, habelə**" sözləri çıxarılmışdır, "**üçüncü**" sözündən sonra "**, dördüncü**" sözü əlavə edilmişdir.

[135] 1 sentyabr 2004-cü il tarixli 729-IIQD nömrəli "Azərbaycan Respublikasının Əmək Məcəlləsinə bəzi əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2004-cü il, № 9, maddə 672**) ilə 77-ci maddənin yeddinci hissəsinə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilmişdir:

"Əmək müqaviləsinə bu Məcəllənin 68-ci maddəsinin ikinci hissəsinin "ç" bəndi ilə xitam verildikdə, işəgötürən işçiyə orta aylıq əmək haqqının azı üç misli miqdarında müavinət ödəyir.".

[136] 12 oktyabr 2001-ci il tarixli 195-IIQD nömrəli "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi barədə"Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2002-ci il, № 1, maddə 2**) ilə 77-ci maddəyə yeni 8-ci hissə əlavə edilmişdir.

[137] 1 fevral 2008-ci il tarixli 540-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2008-ci il, № 3, maddə 156**) ilə 77-ci maddəyə doqquzuncu hissə əlavə edilmişdir.

24 fevral 2009-cu il tarixli **771-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 294)** ilə 77-ci maddənin 9-cu hissədən "**, işçilərin sayının və ştatlarının ixtisarı halları**" sözləri çıxarılsın, "**işçinin**" sözündən sonra "**müddətli**" sözü əlavə edilmişdir və ikinci cümlə əlavə edilmişdir.

[138] 5 noyabr 2022-ci il tarixli **626-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı 24 noyabr 2022-ci il, "Azərbaycan" qəzeti, 25 noyabr 2022-ci il, № 257, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 11, maddə 1239)** ilə 78-ci maddənin 1-ci hissəsinə yeni məzmunda üçüncü cümlə əlavə edilmişdir.

[139] 19 may 2020-ci il tarixli **114-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 15 iyul 2020-ci il, № 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 7, maddə 832)** ilə 78-ci maddənin 2-ci hissəsinin altıncı abzasında "**əmək şikəstliyi almış və ya peşə xəstəliyinə tutulmuşlara**" sözləri "**istehsalat qəzası və ya peşə xəstəliyi nəticəsində əlilliyi olan şəxslərə**" sözləri ilə əvəz edilmişdir.

[140] 5 oktyabr 2001-ci il tarixli 178-IIQD nömrəli "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2001-ci il, № 11, maddə 672**) ilə 78-ci maddənin 2-ci hissəsinin yeddinci abzasında "**məcburi köçkün**" sözlərindən sonra "**onlara bərabər tutulan şəxs**" sözləri əlavə edilmişdir.

[141] 24 fevral 2009-cu il tarixli **771-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 294)** ilə 79-cu maddənin 1-ci hissəsinin ikinci abzasında "**qadınların**" sözündən sonra "**, üç yaşınadək uşağını təkbaşına böyüdən kişilərin**" sözləri əlavə edilmişdir.

[142] 21 may 2004-cü il tarixli 675-IIQD nömrəli "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikası Əmək Məcəlləsinin 79-cu maddəsində dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2004-cü il, № 6, maddə 413**) ilə 79-cu maddənin 1-ci hissəsinə yeni beşinci abzas əlavə edilmiş və 1-ci hissənin beşinci və altıncı abzasları müvafiq olaraq altıncı və yeddinci abzaslar hesab edilmişdir.

16 oktyabr 2012-ci il tarixli **446-IVQD** Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 01 dekabr 2012-ci il, № 268, "Azərbaycan" qəzeti, 02 dekabr 2012-ci il, № 269, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, № 11, maddə 1054)** ilə 79-cu maddənin 1-ci hissəsinin dördüncü bəndində "**şəkərli diabetlə**" sözlərindən sonra "**və ya dağınıq sklerozla**" sözləri əlavə edilmişdir.

[143] 24 fevral 2009-cu il tarixli **771-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105,Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 294)** ilə 79-cu maddənin 1-ci hissəsinin yeddinci abzası səkkizinci abzas hesab edilmişdir və hissəyə aşağıdakı məzmunda yeddinci abzas əlavə edilmişdir.

19 may 2020-ci il tarixli **114-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 15 iyul 2020-ci il, № 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 7, maddə 832)** ilə 79-cu maddənin 1-ci hissənin yeddinci abzasında **"I qrup əlil**" sözləri "**I dərəcə əlilliyi olan**" sözləri ilə əvəz edilmişdir.

22 iyun 2021-ci il tarixli **348-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 21 avqust 2021-ci il, № 175, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 8, maddə 894)** ilə 79-cu maddənin 1-ci hissəsinin yeddinci abzasında "**sağlamlıq imkanları məhdud 18 yaşınadək və ya I dərəcə əlilliyi olan**" sözləri "**18 yaşınadək əlilliyi müəyyən edilmiş və ya orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş"** sözləri ilə əvəz edilmişdir.

[144] 19 may 2020-ci il tarixli **114-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 15 iyul 2020-ci il, № 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 7, maddə 832)** ilə 79-cu maddəyə yeni məzmunda 3-cü hissə əlavə edilmişdir.

[145] 16 may 2008-ci il tarixli 608-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, №7, maddə 600**) ilə maddənin 1-ci hissəsi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~1. Bu Məcəllənin 70-ci maddəsinin b) və ç) bəndlərində göstərilən əsaslarla işəgötürən tərəfindən əmək müqaviləsinin ləğv edilməsi müəssisənin həmkarlar ittifaqı təşkilatının qabaqcadan razılığı alınmaqla həyata keçirilməlidir. Həmkarlar ittifaqı təşkilatı əmək müqaviləsinin ləğvi üçün bu Məcəllədə nəzərdə tutulan əsasın düzgün tətbiq edildiyini, bu Məcəllənin 77-79-cu maddələrinin müvafiq normalarına əməl edildiyini, işçinin təqsirini və məsuliyyətini obyektiv və qərəzsiz araşdıraraq özünün yazılı qərarını üç gün müddətində işəgötürənə təqdim etməlidir.~~

[146] 16 may 2008-ci il tarixli 608-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, №7, maddə 600**) ilə maddənin 2-ci hissəsi 3-cü hissə hesab edilmişdir və maddəyə yeni məzmunda 2-ci hissə əlavə edilmişdir.

[147] 10 oktyabr 2006-cı il tarixli 155-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 11, maddə 923**) ilə 87-ci maddənin 1-ci hissəsinə yeni məzmunda ikinci abzas əlavə edilmişdir.

[148] 2 oktyabr 2008-ci il tarixli **697-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 30 oktyabr 2008-ci il, № 242, Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2008-ci il, № 10, maddə 887)** ilə 87-ci maddəyə yeni məzmunda 6-cı hissə əlavə edilmişdir.

[149] 24 fevral 2009-cu il tarixli **771-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 may 2009-cu il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 05, maddə 294)** ilə 87-ci maddəyə 7-ci hissə əlavə edilmişdir.

[150] 13 may 2022-ci il tarixli **529-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 10 iyun 2022-ci il, № 121, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, №6, maddə 582)** ilə 87-ci maddəyə yeni məzmunda 8-ci hissə əlavə edilmişdir.

[151] 17 may 2016-cı il tarixli **252-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 22 may 2016-cı il, № 110, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 5, maddə 847)** ilə 91-ci maddəsinin 2-ci hissəsinə "**hamilə və yaşyarımadək uşağı olan qadınlar**" sözlərindən sonra "**və 3 yaşınadək uşağını təkbaşına böyüdən valideynlər**" sözləri əlavə edilmişdir.

19 may 2020-ci il tarixli **114-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 15 iyul 2020-ci il, № 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 7, maddə 832)** ilə 91-ci maddənin 2-ci hissəsində **"2-ci qrup əlil**" sözləri "**2-ci dərəcə əlilliyi**" sözləri ilə əvəz edilmişdir.

22 iyun 2021-ci il tarixli **348-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 21 avqust 2021-ci il, № 175, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 8, maddə 894)** ilə 91-ci maddənin 2-ci hissəsində "**1-ci, 2-ci dərəcə əlilliyi olan**" sözləri "**orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş**" sözləri ilə əvəz edilmişdir.

[152] 13 iyun 2008-ci il tarixli 648-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, №7, maddə 602**) ilə 94-cü maddənin 3-cü hissəsində **"əlillik"** sözündən sonra **", 18 yaşınadək sağlamlıq imkanlarının məhdudluğu"** sözləri əlavə edilmişdir, **"16 yaşınadək əlil"** sözləri **"sağlamlıq imkanları məhdud"** sözləri ilə əvəz edilmişdir.

19 may 2020-ci il tarixli **114-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 15 iyul 2020-ci il, № 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 7, maddə 832)** ilə 94-cü maddənin 3-cü hissəsinə və 232-ci maddənin 3-cü hissəsinin ikinci cümləsinə "**əlillik**," sözündən sonra "**o cümlədən**" sözləri əlavə edilmişdir.

22 iyun 2021-ci il tarixli **348-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 21 avqust 2021-ci il, № 175, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 8, maddə 894)** ilə 94-cü maddənin 3-cü hissəsindən "**, o cümlədən 18 yaşınadək sağlamlıq imkanlarının məhdudluğu**" sözləri çıxarılsın və həmin hissədə "**sağlamlıq imkanları məhdud**" sözləri "**18 yaşınadək əlilliyi müəyyən edilmiş**" sözləri ilə əvəz edilmişdir.

[153] 29 dekabr 2015-ci il tarixli **91-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 19 fevral 2016-cı il, № 38; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 02, I kitab, maddə 201)** ilə 96-cı maddəyə yeni məzmunda 3-cü hissə əlavə edilmişdir.

[154] 16 may 2008-ci il tarixli 608-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, №7, maddə 600**) ilə 97-ci maddənin 2-ci hissəsi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~Əgər işçinin gündəlik iş vaxtının ən azı yarısı gecə vaxtına düşərsə, onda həmin iş vaxtının gecə vaxtına düşən hissəsi bir saat qısaldılır.~~

[155] 19 may 2020-ci il tarixli **114-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 15 iyul 2020-ci il, № 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 7, maddə 832)** ilə 98-ci maddənin 2-ci hissəsində "**Əlil**" sözü "**Əlilliyi olan**" sözləri ilə əvəz edilmişdir.

